# VƏTƏNİMİN FƏDAKAR QƏHRƏMANI



Vətən müharibəsi başladıqdan və bizi şanlı Zəfərə qovuşduran 44 gün keçəndən sonra hamı kimi Ramil də şəhidlərimizə görə həddən artıq kədərlənsə də Şuşamızı, Qarabağımızı, işğalda olan başqa torpaqlarımızı - şəhərlərimizi, qəsəbələrimizi və kəndlərimizi azad etdiyimizə görə çox sevinirdi. O da erməni separatçılarının 10 noyabr günündən sonra Qarabağdan çıxacağına və bütün Qarabağ torpağının tam azadlığına qovuşacağına inanırdı. Ailəsi, doğmaları, əzizləri Vətən müharibəsində şəhid olmuş vətən oğulları üçün kədərlənir, bununla belə Ramilin bu döyüşlərdən sağ çıxmasına görə Allaha dua edirdilər. Lakin təəssüf ki, fələk burada da bir çoxlarının arzuları kimi onların da arzularını ürəklərində, sevinclərini isə gözlərində qoydu. Qarabağda aldıqları ağır məğlubiyyətlərdən və on mini aşan itkilərdən dərs çıxarmayan erməni terrorçuları Qarabağın qalan ərazilərindən əl çəkmədilər. Onlar haqsız, ədalətsiz, özləri xislətli himayədarlarına arxalanaraq öz məkrli planlarını, mina terrorlarını həyata keçirdilər, həmçinin mövqelərimizi həm şərti sərhəddə, həm də rus sülhməramlıları ilə olan təmas xəttində atəşə tutmağa davam etdilər. 2021-ci ilin noyabr ayında, 2022-ci ildə bir neçə dəfə, xüsusilə də həmin ilin sentyabr ayında və nəhayət, 2023-cü ilin aprel və may aylarında baş tutan əməliyyatlardan da nəticə çıxarmayan ermənilər artıq hədd-hüdudlarını aşmışdılar. 44 günlük dəmir yumruq zərbəsinin təsiri onlara dərs olmamışdı. Qarabağın, demək olar ki, hər yerində, xüsusilə də Füzulidə, Ağdamda və Xocavənddə səngər qazır, təxribat və terror aktları törədirdilər. Xankəndi və ətraf ərazilərə ordu yığılır, Qarabağın onlar yaşayan əraziləri yenidən silahlandırılırdı. Ramil bu halı həddən artıq məyusluqla izləyir və bir vətən oğlu kimi mənfur düşmənlərin bu hərəkətlərinə dözə bilmirdi. Separatçıların və onları dəstəkləyənlərin yenidən böyük bir müharibəyə hazırlaşdıqlarını görən Ramil fikirləşirdi ki, yenidən dəmir yumruq işə düşməsə, bunların bu hərəkətlərinə son qoyulmayacaq. Düşünürdü ki, bu döyüş artıq son döyüş olacaq və separatçıların sonunu gətirəcək. O yenə də ailəsini narahat etmək istəmirdi və onlara hər dəfə hər şeyin qaydasında olduğunu söyləyirdi. Ramil qisas hissi ilə alovlanmış, odlanmış qəlbi ilə və bütün cismi, ruhu ilə bu döyüşlərə hazır idi. Yenə şəhidlərimizin olacağına görə kədərlənsə də sonunda özünün də Qarabağ uğrunda gedəcək olan bu son döyüşlərdə iştirak edəcəyinə görə həddən artıq sevinirdi.

Nəhayət, yay fəslinin son günlərində - 2023-cü ilin 19 sentyabrında, günorta saatlarında rəşadətli ordumuz erməni separatçılarına qarşı ildırımsürətli və lokal xarakterli antiterror tədbirlərinə başladı. Döyüşlərdən heç 1-2 saat keçməmiş erməni separatçıları, qaniçənləri artıq başlarını itirdilər. Çünki Azərbaycan Ordusunun bacarıqlı əsgərləri dəqiq atəş zərbələri ilə



separatçıların hərbi hissələrini, raket sistemlərini və hərbi döyüş maşınlarını sıradan çıxarırdılar. Əlbəyaxa döyüşlərdə də əsgərlərimiz böyük hünər, rəşadət göstərirdi. Ordumuz hər tərəfdən erməni separatçılarını əhatəyə almışdı. Türk ərənlərinin Turan taktikası ilə Ağdərə, Xocavənd, Ağdam istiqamətində və daha bir sıra yerlərdə ordumuz sürətlə irəliləyirdi. Bu rəşadətli ordunun rəşadətli giziri Ramil də Ağdərə istiqamətində döyüşür və sanki ermənilərin canına od qoyurdu. Döyüşlərin başlamasındam qısa müddət keçməsinə baxmayaraq Ramil elə ilk anlardan düşmənin qorxulu röyasına çevrilmişdi. Bilirdi ki, artıq bu, düşmənlərin sonudur. Bu döyüşün sonunda Qarabağ torpağı tamamilə yad tapdaqlardan, yad nəfəsdən azad olunacaq. Ona görə də hər dəfə bir separatçını məhv edəndə sanki onun gücünə güc, qüvvəsinə qüvvət, enerji əlavə olunurdu. Xalqımızın 35 il ərzində nələr çəkdiyini, nə qədər qətliamlar, faciələr gördüyünü o, bir daha beynindən keçirir və sonra bu münaqişəyə bir son qoyulacağını fikirləşirdi. Beləliklə, Ramil bu düşüncələr içərisində düşmənə daha amansız yanaşırdı və sona qədər böyük əzmkarlıqla onları məhv edirdi.

20 sentyabr 2023-cü ildə bəzilərimizin 1 həftə, 2 həftə davam edəcəyini söylədikləri o böyük, möhtəşəm, ildırımsürətli əməliyyat 1 sutkadan da az, yəni 23 saat 43 dəqiqənin tamamında sona yetdi. 200 ildən artıq bir müddətdə başladılmış, yaxın tariximizdə isə 35 ildir bitməyən bu münaqişə 23 saat 43 dəqiqədə Azərbaycan Respublikasının Ali Baş Komandanının rəhbərliyi, silahlı qüvvələrimizin rəşadəti və şücaəti sayəsində parlaq qələbəmiz ilə sona yetdi. Azərbaycan Ordusunun giziri, əslən Abşeron rayonunun Ceyranbatan qəsəbəsindən olan Ramil Sücəddin oğlu Rəhimov antiterror əməliyyatlarında Ağdərə istiqamətində döyüşürdü. Ramil Ağdərəni azad edib bizə qaytardı, lakin Ramil qayıtmadı... O, Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhidlik Zirvəsinə ucaldı. Qara ilin ilk günündə dünyaya göz açan qəhrəman canı və qanı bahasına gələcək illərimizin qara il olmasının ömürlük qarşısını aldı. Son dərəcə fədakarlıq göstərən Ramil bu yolda ailəsinin başçısız, gözəl qızının atasız qalmasını gözə aldı. Şirin canının vətən yolunda torpağa düşməsinə, bir daha yaşaya bilməyəcəyi bu şərəfli həyatının bir gündə sonlanmasına sevə-sevə razı oldu. Ramil kimi fədakar oğullarımızın sayəsində Qarabağımız tam azadlığına qovuşdu! Onların sayəsində artıq biz bundan sonra alnımıza yazılan qara "qaçqın", "məcburi köçkün" ləkəsini birdəfəlik siləcək və yenidən öz doğma torpaqlarımıza qayıdacağıq! Heç bir zaman Ramili və onun kimi neçə-neçə Ramillərimizi unutmayacaq, xatirələrini qəlbimizin ən dərin, gözəl guşələrində və ən ülvi hisslərlə saxlayacağıq!

Məqaləmi şəhidimizə həsr etdiyim "Vətənimin fədakar qəhrəmanı" adlı şeirimlə bitirir, Allahdan şəhidimiz Ramil Rəhimova və bütün Şəhidlərimizə rəhmət diləyirəm:

**VƏTƏNİMİN FƏDAKAR QƏHRƏMANI**

Şəhidim, sonadək borcluyuq sənə,
Gözəl Qarabağı bizə qaytardın.
Sinə gərdin sən saysız güllələrə,
Ancaq yurdumun yarasın sağaltdın.

Candan keçdin Vətənimin yolunda,
Onun üçün dözdün çox əzablara,
Sən böyük dərs verərək yağılara,
Öz adını şəhadətə ucaltdın.

Qorxulu bir kabus oldun düşmənə,
Qan uddurdun onun hər əsgərinə,
Onlar dözmədilər zərbələrinə,
Sən düşməni al qanına boyatdın.

Gözəl həyatla vidalaşıb getdin,
Övladını bizə əmanət etdin,
"Qarabağımız azad olsun" dedin,
Sonda qara torpaq altında yatdın.

Bir gündə son qoydun qadaya, qana,
Qaytardın bizlərə bizim olanı.
Qələbə bəxş etdin Azərbaycana,
Vətənimin fədakar qəhrəmanı!

*P.S: Bu məqaləni yazdıqdan 3 ay sonra 01.01.2024-cü ildə şəhidimizin ikinci qız övladı dünyaya gəlmişdir. Şəhidimizin öz arzusu ilə qızına Yağmur adı qoyulmuşdur. Uca Allahdan arzu edirəm ki, şəhidimizin övladları onun adına və vətənimizə layiq övladlar olsunlar. Amin!*



*Sevindik Nəsiboğlu*
*AJB-nin üzvü*